# Milli və dövlətçilik maraqlarımızın keşiyində duran dövlət xadimi

***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva milli maraqların keşiyində dayanan ictimai-siyasi xadimdir. Onun birbaşa təşəbbüsü və rəhbərliyi ilə mədəniyyət, humanitar və sosial-iqtisadi sahələrin inkişafına dair mühüm proqramlar həyata keçirilir. Cəmiyyət həyatının bütün sahələrinin daimi yüksəlişini təmin edən belə əhəmiyyətli layihə və proqramların reallaşdırılması Azərbaycan xalqı tərəfindən alqışlanır və dəstəklənir. Xüsusilə də ölkədə Birinci vitse-prezidentlik institutunun yaranmasından sonra bu mühüm proses daha əhatəli və nəticəyönümlü xarakter alıb.***



Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının ən ali ikinci dövlət vəzifəsi olan Birinci vitse-prezident vəzifəsini daşıyır. Ötən dövr ərzində formalaşmış Birinci vitse-prezidentlik institutu funksional təsisat kimi uğurla fəaliyyət göstərir. Əldə olunan uğurlar təsdiqləyir ki, bu təsisat idarəetmənin dinamikliyini və səmərəliliyini artırmışdır. Mütəxəssislərin ortaq rəyinə görə, Azərbaycanda vitse-prezidentlik institutunun fəaliyyətə başlaması dövlətin ali idarəçiliyini zənginləşdirmiş, piramidal idarəçiliyin ali, mərkəzi və aşağı mərhələləri arasında bağlılığı, eləcə də, dövlət rəhbəri ilə hakimiyyət qolları arasında koordinasiyanı gücləndirmişdir. Bunun nəticəsidir ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi bu institut əsaslı sosial-iqtisadi islahatların aparıldığı müasir dövrdə idarəetmə sistemində səmərəliliyin artırılması, ölkənin qarşısında duran vəzifələrin reallaşdırılması baxımından çox böyük əhəmiyyət daşıyır. İdarəçilik sistemində yeni hadisə kimi qiymətləndirilən vitse-prezidentlik institutunun mövcudluğu dövlətin yaxşı idarə edilməsinin təminatı, qərarların çevik qəbulu və həyata keçirilməsi baxımından olduqca faydalıdır.

Birinci vitse-prezident kimi fəaliyyət göstərdiyi 2 il müddətində Mehriban xanım Əliyevanın gördüyü işlər ölkə vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanıb. Onun xalqın maraqlarının müdafiəsinə yönəlmiş çoxaspektli fəaliyyəti Azərbaycanda müsbət sosial-iqtisadi atmosferin formalaşmasına şərait yaratmaqla yanaşı, qadınların cəmiyyətin həyatında rolu barədə aydın təsəvvürün yaranmasına da təkan verir. Belə ki, Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası bir daha aydın görünür.

Mehriban xanım Əliyeva müsahibələrinin birində Birinci vitse-prezident kimi əsas diqqətinin sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istədiyini açıqlamışdı. Buna görə də, təsadüfi deyil ki, yeni vəzifəyə təyinatından sonra keçirdiyi ilk müşavirə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuşdu. 2017-ci il martın 9-da keçirilmiş görüşdə Birinci vitse-prezident müşavirənin doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin həllinə həsr edildiyini, bu məsələnin artıq 20 ildən çoxdur dövlətin diqqət mərkəzində olduğunu bildirmişdi. Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin imzaladığı qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına dair Dövlət Proqramının icrası nəticəsində soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təyinatı istiqamətində lazımi tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmış və indiyə qədər bölgələrdə məcburi köçkünlər üçün 100-ə yaxın müasir yaşayış kompleksinin salındığını, 250 min köçkünün yeni mənzillə təmin olunduğunu, salınan qəsəbələrdə 150 məktəb, 60 tibb mərkəzi və uşaq bağçası inşa edildiyini vurğulamışdı.

Soydaşlarımızın işlə təmin olunması istiqamətində lazımi addımlar atıldığını, son 13 ildə yüz minlərlə qaçqın və məcburi köçkünün işlə təmin olunduğunu vurğulayan Mehriban xanım Əliyeva müşavirədə ən qəzalı, ən ağır vəziyyətdə yaşayan ailələrin tezliklə yeni binalara köçürülməsi ilə bağlı müvafiq dövlət orqanları arasında əlaqələndirilmənin aparılması ilə bağlı tapşırıqlarını da vermişdi. Azərbaycanın Birinci vitse-prezidenti qaçqınların və məcburi köçkünlərin işlə təmin olunması istiqamətində rayon icra hakimiyyətlərinə təkliflər hazırlamağı da tapşırmışdı.

Müşavirədən sonra bu istiqamətdə atılan addımlar sürətləndirildi. May ayında Birinci vitse-prezident Mehriban Əliyeva Qaradağ rayonunda məcburi köçkünlər üçün yeni müasir yaşayış kompleksinin təməlqoyma, iyun ayında isə "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsinin icrası çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimində iştirak etmişdir.

Heç kəsə sirr deyil ki, Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunana qədər bütün ictimai-siyasi fəaliyyəti ərzində humanitar, sosial sahələri daim diqqət mərkəzində saxlamışdır. Onun təşəbbüsü və rəhbərliyi ilə bu sahələrdə həyata keçirilmiş layihələr, gördüyü işlər Azərbaycanın daha da güclənməsinə öz müsbət təsirini göstərmişdir. Mehriban xanım Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı kimi həm Azərbaycanda, həm də dünyanın müxtəlif ölkələrində çoxsaylı layihələrə, mühüm işlərə imza atmışdır.



Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu mənada Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması və təbliğində çox əhəmiyyətli rol oynayır. Ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması, yaradıcı gənclərin dünyanın aparıcı ali məktəblərində təhsil almasının dəstəklənməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Klassik və müasir Azərbaycan ədəbiyyatı nümunələrinin xarici dillərə, dünya ədəbiyyatı incilərinin ana dilimizə tərcümə edilərək nəşr olunmasına, ölkəmizin tarixi həqiqətlərini, milli mədəniyyət və incəsənətimizi əks etdirən çoxsaylı çap məhsullarının hazırlanmasına fond tərəfindən xüsusi dəstək verilmişdir. Azərbaycanın mədəniyyət tarixində silinməz iz buraxan layihələrin həyata keçirilməsində fəaliyyətini davam etdirən fond mədəniyyət nümayəndələrinə səmərəli fəaliyyət göstərmək üçün geniş imkanlar, əlverişli şərait yaradır.

Heç kimə sirr deyil ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli hər zaman dövlətimizin diqqət mərkəzindədir. Bu təbəqədən olan insanların yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması istiqamətində ölkəmizdə xeyli işlər görülməkdədir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən hər il qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə məktəbli ləvazimatından ibarət hədiyyələrin təqdim olunması, müvəqqəti məskunlaşma obyektlərində mütəmadi olaraq məcburi köçkünlərlə görüşlərin keçirilməsi, eləcə də Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə çoxsaylı məktəb binalarının tikilib istifadəyə verilməsi də qayğı və diqqətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bu günə qədər çox böyük işlər görülmüş, 300 mindən artıq insan evlə təmin olunmuşdur. Bundan sonra da həmin iş davam etdiriləcəkdir. Göründüyü kimi, Heydər Əliyev Fondu dövlətin diqqət ayırdığı vacib sosial layihələrə ciddi dəstəyini göstərir və bu dəstəyin bundan sonra da davam etdirilməsi üçün mükəmməl iradə və istək var.

Heydər Əliyev Fondu təhsilin inkişafı istiqamətində də mühüm təşəbbüslərlə çıxış etmiş, bu sahədə genişmiqyaslı işlərə imzasını atmışdır. Bu baxımdan, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını xüsusi olaraq qeyd etmək lazımdır. Bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlər öz əksini tapıb və qarşıya qoyulan məqsədlərə müvafiq olaraq həyata keçirilən tədbirlər səmərəli nəticələr vermişdir. Bununla yanaşı, fond hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan şagirdlərə xüsusi qayğı göstərir. Məhz Heydər Əliyev Fondunun həyata keçirdiyi irimiqyaslı layihələr təhsil sahəsində əsaslı dönüş yaratmışdır.



**Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların açılış mərasimi**

Uşaq müəssisələrinin infrastrukturunun inkişaf etdirilməsi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr arasında önəmli yer tutur. Ölkənin bütün ərazisində gələcəyimiz olan uşaqların rahat təhsil almaları, yüksək tibbi xidmət görmələri, istedadlarını inkişaf etdirmələri üçün müasir infrastruktur yaradılmış və bu proses davam edir. Mehriban xanım Əliyevanın belə bir xeyirxahlıq missiyasının nəticəsidir ki, bu gün Azərbaycanda qayğıya ehtiyacı olan övladlarımız Heydər Əliyev Fondunun sevgisi ilə əhatə olunmuşlar. "Uşaq evləri və internat məktəblərinin inkişafı" layihəsi də Heydər Əliyev Fondunun fəaliyyətində önəmli yerlərdən birini tutur. Valideyn himayəsindən məhrum olmuş və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara, qaçqın və məcburi köçkünlərə, yoxsulluq həddindən aşağı səviyyədə yaşayan insanlara, xəstələrə və qocalara yönələn diqqət və qayğını Birinci vitse-prezidentin və fondun yüksək sosial məsuliyyətinin təzahürü kimi qiymətləndirmək olar.

Müxtəlif ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi, sivilizasiyalararası dialoqun genişləndirilməsi yönündə mühüm nailiyyətdir. UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın səmərəli fəaliyyətinin nəticəsi olaraq muğam və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də, Azərbaycan xalçası UNESKO-nun Qeyri-maddi Mədəni İrs siyahısına daxil edilmişdir. Hər il fondun dəstəyi ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı Şərq və Qərb musiqisini, eləcə də məşhur ifaçıları, bəstəkarları bir araya gətirir. Festivala gələn çoxsaylı xarici qonaqlar, eyni zamanda, Azərbaycan musiqisinin gözəl inciləri ilə tanış olur, ölkəmizin mədəniyyəti barədə aydın təsəvvür qazanırlar.

Bundan başqa, Azərbaycanın dünyaya nümayiş etdirdiyi tolerantlıq örnəyi mədəniyyətlərin təmas tapdığı Bakının timsalında özünü bariz şəkildə göstərir. Bu istiqamətdə həm dövlət, həm də qeyri-dövlət xətti ilə addımlar atılır. Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda gerçəkləşən beynəlxalq festivallar müxtəlif ölkələrin sənətçiləri arasında dialoq üçün imkanlar açır.

Heydər Əliyev Fondunun fəaliyyət coğrafiyası Azərbaycan sərhədlərini aşmışdır. Fondun dünyanın bir sıra ölkəsində həyata keçirdiyi müxtəlif layihələr təşkilatın nüfuzunu yüksəltməklə yanaşı, Azərbaycan həqiqətlərinin təbliği işinə də müsbət təsir göstərir, ölkələr arasında münasibətlərin daha da güclənməsinə öz töhfəsini verir. Məsələn, fondun təşəbbüsü ilə 2005-ci ildə Pakistanın Müzəffərabad şəhərində baş vermiş zəlzələ nəticəsində zərərçəkmiş insanlara humanitar və tibbi yardımlar göstərilmiş, habelə 2012-ci ilin mayında Pakistanda keçirilmiş silsilə humanitar yardımlar çərçivəsində İslamabad şəhərində kimsəsizlər evindəki uşaqlar üçün tibbi müayinə təşkil olunmuş, onlara hepatit B virusuna qarşı peyvəndlər edilmiş, Peşavar şəhərində "Akbar Kare" Serebral Paralic İnstitutunda imkansızlar üçün pulsuz müayinə aparılmış, Khayber Paxtunxva əyalətinin Qazni Laki Marvat şəhərində qadınlar və uşaqlar üzərində açıq ürək əməliyyatları həyata keçirilmişdir. Bununla yanaşı, 2005-ci ildə Gürcüstanın Hematologiya və Transfiziologiya İnstitutuna "Desferal" preparatlarının hədiyyə olunması və Rostropoviç-Vişnevskaya Fondu tərəfindən "Hamilə qadınların hepatit B və HİV-ə qarşı diaqnostikası və yeni doğulmuş uşaqların hepatit B virusuna qarşı profilaktikası" proqramının həyata keçirilməsi üçün 2011-ci ildə Rostropoviç-Vişnevskaya Fonduna maliyyə dəstəyinin göstərilməsi ölkələr arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edir.

Ermənistanın törətdiyi Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla xanım Əliyevanın böyük rolu olmuşdur. Onun təşəbbüsü ilə 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümündə irəli sürülmüş "Xocalıya ədalət!" kampaniyası hazırda 80-dən artıq ölkədə uğurla davam etdirilməkdədir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə siyasi-hüquqi və mənəvi qiymət verilməsi, həmçinin beynəlxalq səviyyədə anılmasını təmin etməkdir. Aparılan məqsədyönlü iş nəticəsində artıq 14 dövlətin – Pakistan, Meksika, Kolumbiya, Sudan, Peru, İordaniya, Honduras, Panama, Rumıniya, Cibuti, Çex Respublikası, Bosniya və Hersoqovina, Qvatemala və Şotlandiyanın qanunverici orqanları və ABŞ-ın 22 ştatı Xocalı faciəsini soyqırımı kimi rəsmi qaydada qəbul etmişdir."Xocalıya ədalət!" kampaniyasının vacib hissəsi kimi rus yazıçısı və tarixçisi Yuri Pompeyevin nəşr olunmuş "Qarabağ gündəliyi" kitabında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında dəqiq tarixi faktlar yer almışdır.

Heydər Əliyev Fondu nəinki Azərbaycanda, eləcə də xarici ölkələrdə də təhsilin inkişafına müsbət təsir göstərəcək addımlar atmışdır. Belə ki, "Təhsilə dəstək" layihəsi çərçivəsində fond tərəfindən Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblərin binaları yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. 2008-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gürcüstanın Dmanisi rayonunda yeni kompüter tədris mərkəzinin binası inşa edilmişdir. 2010-cu ildə fondun dəstəyi ilə Gürcüstanın Marneuli şəhərindəki 7 nömrəli Azərbaycan ümumtəhsil məktəbi, Tbilisidəki M.F.Axundzadə adına 73 nömrəli orta məktəb, Qardabanidəki 3 nömrəli Azərbaycan məktəbi və Dmanisidəki 2 nömrəli Azərbaycan beynəlxalq orta məktəbi əsaslı təmir olunmuş, 2011-ci ildə Bolnisi rayonunun Həsən Xocalı və Cəfərli kəndlərində yeni məktəb binaları inşa edilərək istifadəyə verilmişdir. Fondun fəaliyyəti Rusiya Federasiyasını da əhatə edir. Belə ki, 2010-cu ildə şimal qonşumuzun Ulyanovsk şəhərindəki 78 nömrəli orta ümumtəhsil məktəbin binası əsaslı təmir edilmişdir.

Heydər Əliyev Fondu Azərbaycanın idman sahəsinə də xüsusi diqqət yetirir. Fond 2015-ci ildə Azərbaycanın Birinci Avropa Oyunlarına, həmçinin həmin ildə bədii gimnastika üzrə beynəlxalq kubok yarışına evsahibliyi etməsində böyük rol oynamışdır. Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu Birinci Avropa Oyunlarının keçirilməsində, Azərbaycanın bu mötəbər yarışa evsahibliyi etməsində xüsusi təşəbbüs göstərmiş, onun dünyada idman ölkəsi kimi tanıdılmasına töhfələr vermiş və bu səylər ölkəmizin yarışlarda ilk yerləri tutması ilə nəticələnmişdir. Bu, Mehriban xanımın uğurla təşkil etdiyi yeganə irimiqyaslı tədbir deyildir. O, 2017-ci ilin 12-22 may tarixlərində Azərbaycanın evsahibliyi etdiyi IV İslam Həmrəyliyi OyunlarınınTəşkilat Komitəsinin sədri olmuş və bu tədbirin təşkilində parlaq müvəffəqiyyət və nailiyyətlər əldə etmişdir. Bununla yanaşı, Heydər Əliyev Fondunun keçirilməsində böyük rol oynadığı "Formula-1" Qran-prisi də müstəsna beynəlxalq idman yarışlarından hesab olunur. Yeri gəlmişkən, "Eurovision" musiqi yarışmasının Bakıda yüksək səviyyədə keçirilməsində birinci xanımın səylərini xüsusilə qeyd etmək lazımdır. Belə ki, bu musiqi yarışması dünyada ən uzun televiziya proqramı, Avropa qitəsində isə ən mühüm musiqi tədbiri hesab olunur. Bu yarışmanı izləmək üçün dünyanın müxtəlif ölkələrindən Azərbaycana üz tutmuş çoxsaylı qonaqlar Bakının onlara göstərdiyi qonaqpərvərlikdən razılıqlarını ifadə etmiş və Azərbaycanın müxtəlif sahələrdə nail olduğu sürətli inkişafın şahidi olmuşlar.

Yaradıldığı gündən bəri Heydər Əliyev Fondu dünya mədəniyyətinin inkişafında, sivilizasiyalararası dialoqun möhkəmlənməsində böyük rol oynayır, humanist dəyərlərin, sülh və tolerantlığın yayılmasına, mədəniyyətlərarası dialoqun inkişafına əvəzsiz töhfələr verir. Fondun dəstəyi ilə Parisdəki Luvr muzeyində İslam incəsənəti bölməsi yaradılmış, Versal sarayında tarixi incəsənət abidələrinin, həmçinin İkinci dünya müharibəsi nəticəsində dağıdılmış Berlin qəsrinin, Vatikan arxivində saxlanılan nadir əlyazmaların və orada yerləşən qədim heykəllərin bərpa işləri həyata keçirilmişdir. Roma şəhərində yerləşən Kapitolini Muzeyində "Filosoflar zalı"nın bərpası fondun bu sahədə ən mühüm nailiyyətlərindən biri hesab edilir.

Bütün bunlarla yanaşı, dünyanın müxtəlif ölkələrində baş verən təbii fəlakətlərin qurbanları da fondun diqqətindən kənarda qalmır. Təbii fəlakətlərdən əziyyət çəkmiş Rumıniyaya və Haitiyə Azərbaycanın birinci xanımının təşəbbüsü ilə yardımlar göstərilmişdir. Heydər Əliyev Fondu Parisdə terror qurbanlarının 7-ci beynəlxalq konfransının təşkili məqsədilə 2011-ci ilin sentyabr ayında Fransa Terror Qurbanları Assosiasiyasına maliyyə yardımı da göstərmişdir. Bu addım fondun bəşəri dəyərlərə necə böyük qiymət verdiyini bir daha göz önünə gətirir.

Göründüyü kimi, Heydər Əliyev Fondunun fəaliyyəti Azərbaycanın daxili və xarici siyasətinin uğurla formalaşdırılmasına öz töhfəsini verir. Sülhün bərqərar olmasında, Azərbaycan mədəni irsinin dünya ictimaiyyətinə çatdırılmasında, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət strategiyasının formalaşdırılmasında, mədəniyyətlərarası dialoqun təşkili və inkişafında, idmanın inkişaf etdirilərək Azərbaycanı beynəlxalq səviyyədə yüksək kürsülərdə tanıtmasında, Azərbaycan lobbisinin səmərəli fəaliyyətinin təşkilində fond əvəzedilməz xidmət göstərir.

***"Xalq qəzeti"***